# ADPU-nun KAFEDRA MÜDİRİ RAZİM MƏMMƏDLİNİN ELMİ MƏQALƏSİ CƏNUBİ KOREYADA DƏRC OLUNUB



*TƏBRİK EDİRİK!..*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi ilə bağlı verdiyi 22 oktyabr 2025-ci il tarixli Sərəncamından sonra düz bir əsr öncə keçirilmiş qurultayın nə səbəbə və hansı məqsədlə keçirilməsi, onun təşkilatçıları, keçirilən iclaslar, müzakirəyə çıxarılan məsələlər və s. ilə bağlı bir sıra araşdırmalar aparılır, kitablar, məqalələr çap olunur, qurultayın müsbət və mənfi cəhətlərinə aydınlıq gətirilir.

Elə bu günlərdə tanınmış ədəbiyyatşünas alim, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsi nəzdindəki Ədəbiyyat kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Razim Məmmədovun "Türk xalqlarının həyatında tarixiləşən qurultay" sərlövhəsi məqaləsi 2026-cı il yanvarın 8-9-da Cənubi Koreyanın paytaxtı Seul şəhərində keçirilmiş "Əməkdaşlıq innovasiyası ilə Elmin inkişafı" adlı V Beynəlxalq Elmi və Praktik Konfransının Materiallarında dərc olunmuşdur.

Məqalədə 1926-cı il fevralın 26-da Bakıda keçirilmiş Ümumtürk xalqlarının Birinci Türkoloji Qurultayı tədqiqata cəlb olunur. Göstərilir ki, həmin ilin mart ayının 6-na kimi davam edən bu Qurultayda türk xalqlarının milli-mənəvi dəyərlərinin yüksəlməsinə yönələn müəyyən məsələlər müzakirə olunmuşdur.

Məqalədə xüsusi olaraq vurğulanır ki, tanınmış türkoloq, görkəmli dilçi-alim, akademik Mədəd Çobanovun düz 20 il əvvəl 2006-cı ildə işıq üzü görən və elə bu günlərdə təkrarən nəşr olunan "Birinci Türkoloji Qurultay və türk dillərinin müasir problemləri" adlı kitabında da həmin tarixi hadisədən bəhs olunur. Alim türk dillərinin müasir probleminə toxunaraq yazırdı: "Hər şeydən əvvəl Avropa və Asiya qitələrində yaşamış, qədim tarixə malik olan türk xalqlarının keçmiş şərəfli və keşməkeşli tarixi yalnız kitabələrdə, kitablarda, arxiv sənədlərində yox, eyni zamanda, o həm də mənşəyi və tipologiyası cəhətdən bir-birinə yaxın və qohum olan türk dillərinin "tarixi yaddaşı"nda həkk olunması və tədricən inkişaf edə-edə bu günümüzə qədər gəlib çatması ilə əlaqədar olmuşdur".

Məsələni müasir dövrün əsas problemi kimi dəyərləndirən akademik Mədəd Çobanov onun çıxış yolunu "Altay epoxasından üzü bəri qədim dillərinin birliyinə doğru istiqamət götürmək, hər şeydən əvvəl,




türklərin öz qədim soykökünə, tarixinə, mədəniyyətinə, ədəbiyyatına, incəsənətə, tarixin sınaqlarından çıxmış adət-ənənələrinə, türk inamına və xarakterinə, etik və estetik görüşlərinə qayıtmaq"da görür, bir sıra qiymətli mülahizələr söyləyərək onların reallaşmasının elmi əsaslarını nəzərə çatdırır.

Türk xalqlarının bir-birinə yaxınlaşmasını, inteqrasiya etməsini müasir dövrdə həllini gözləyən ən aktual problem hesab edən akademik Mədəd Çobanov qeyd edirdi ki, "dünyanın istər mənşəcə qohum olan və istərsə də dini baxımdan eyni inama, mədəniyyətə xidmət edən ayrı-ayrı xalqları siyasi, iqtisadi və mədəni cəhətdən bir-birinə yaxınlaşdığı, birbirinə inteqrasiya olduğu kimi, soykökü, mənşəyi-qohumluğu, dini-inamı, adət-ənənələri də bir-birinə demək olar ki, eyni olan türk xalqlarının da siyasi, iqtisadi, mədəni və strateji baxımdan bir-birinə yaxınlaşması, bir-birinə qovuşması, inteqrasiyası günün ən aktual məsələlərindən biri olmalıdır".

Mərhum türkoloq-alim Mədəd Çobanovun fikrincə məsələnin həlli "fikir və düşüncəni türk xalqlarının ədəbi dillərinin birliyinə doğru yönəltmək" istiqamətində aparılarsa bu, problemin tezliklə çözülməsinə səbəb olar. O, gəldiyi qənaətləri belə ümumiləşdirir: "Çünki hər bir xalq bəşəriyyətə özünün qədim köklərə, ənənələrə malik ana dili ilə təqdim edir. Bu təqdimat isə, hər şeydən əvvəl, özünü etnoqrafik (adət-ənənələrə və məişət münasibətləri), etnopsixoloji (xalqın elmi düşüncə tərzi, düşüncə dairəsi), mifoloji (xalqın inamlar dünyasının sirrini öyrənmə) və digər strateji sahələrdə büruzə verir".

Biz də redakdiya heyətimiz adından, dəyərli ziyalımız, tanınmış ədəbiyyatşünas alim, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsi nəzdindəki Ədəbiyyat kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Razim Məmmədovu "Türk xalqlarının həyatında tarixiləşən qurultay" sərlövhəsi məqaləsinin 2026-cı il yanvarın 8-9-da Cənubi Koreyanın paytaxtı Seul şəhərində keçirilmiş "Əməkdaşlıq innovasiyası ilə Elmin inkişafı" adlı V Beynəlxalq Elmi və Praktik Konfransının Materiallarında dərc olunması münasibətilə ürəkdən təbrik edir və ona şərəfli elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq!..

***Müşfiq BORÇALI***